Realizm formalarının müəyyən edilməsi üçün ən çox işlənən termin "postmodernizm" oldu. Bu terminlə postmodernizm dövründə realizmin mövcud olduğunu göstərən əsərlər ifadə edilməyə başlandı. Həmin vaxt ədəbi istiqamətlər və cərəyanların inkişafı tarixində artıq neçənci dəfə açıq şəkildə XX əsrin sonu ədəbi mühitə qeyri-adekvat hesab edilən dünyaya realist baxışın sıradan çıxarılması haqqında danışılırdı. Müasir tədqiqatçılar yeni metodun əsaslarını hazırlamağa başlayır və yeni bədii sistemin nəzəri bazası kimi dünyanı daim dəyişən bir mövcudluq formasında qəbul edən relyativ estetikanın müəllifi M.M.Baxtinin ideyalarını əsas götürürlər.

Bəzi tədqiqatçıların fikrincə, postrealizm ilk dəfə 1920-30-cu illərdə A.Platonovun «Чевенгур», "A.Axmatovanın «Реквием», M.Bulqakovun «Мастер и Маргарита» əsərlərindən başlayır. Həmin vaxt bu istiqamət XX

əsrin əvvəlləri sosial realizm və modernizmə əks olaraq yaranır. Tədqiqatçılar postrealist yaradıcılığının əlamətlərini "yumşalma" dövründə, V.Şalamovun «Колымские рассказы», B.Pasternakın «Доктор Живаго» əsərlərində də aşkar edirlər. Lakin bu sistem məlum səbəblərdən qeyd olunan dövrlərin heç birində inkişaf etmədi, tədqiqat marağı oyatmadı.

Postrealizmin strategiyasına yeni müraciət 1970-80-ci illərdə, "40-cılar nəsli" adlanan yazıçı və şairlərin yaradıcılığında (A.Kim, R.Kireyev, V.Makanin və digərləri) yaranır. Onların əsərləri "durğunluq" dövrünün rəsmi tənqidçiləri tərəfindən birmənalı şəkildə qəbul edilmirdi. Yalnız postsovet dövründə, dəqiq desək, 1990-cı illərdən etibarən postrealizm haqqında müasir ədəbiyyatda müəyyən sistem kimi danışılmağa başlandı. Yazıçılar da bu məcrada klassik realizm və müasir modernizm arasında dialoq qururlar. Bəzi tədqiqatçılar L.Leonovun «Пирамида» romanını da bu istiqamətə aid edirlər.

Bir çox tədqiqatçıların fikrincə, bu metod sosial problemlərdən imtina edən, gündəlik həyatın ekzistensial dərkinə diqqət ayıran bir sıra müasir yazıçıların da yaradıcılığında tətbiq edilir (V.Makanin, L.Petruşevskaya, S.Dovlatov, A.İvançenko, F.Qorenşteyn, N.Kononov, O.Slavnikova, Y.Buyda, M.Xaritonov, S.Qandlevski, D.Qalkovski və bir çoxları). Baxmayaraq ki, adı çəkilən hər müəllif postrealizm daxilində müxtəlif üslub cərəyanlarını təmsil edir, lakin onların hamısı üçün ümumi olan məqamlar bunlardır: realizmi postmodernizmlə birləşdirmək cəhdi, dünyanın məntiqsiz, absurd xaos kimi dərki və eyni zamanda burada mahiyyət axtarışı, yeni quruluşun "tərbiyə romanı"na meyllilik, məna konsepsiyası, ibrətlilik, mifləşdirmə və s. ön plana çıxarılması.

Buna baxmayaraq, ədəbiyyat haqqında elmdə və əsrlərin qovuşması dövrünün tənqidi fikrində müasir realist ədəbiyyatın müəyyən edilməsi və fərqləndirilməsi problemi, xüsusən də postrealizm problemləri kifayət qədər öyrənilməmiş olaraq qalır. Yuxarıda qeyd edilənlər hazırda ədəbiyyatşünaslığın aktual mövzularından olan müasir ədəbiyyatda postrealizm probleminə müraciəti əsaslandırır. Müasir postrealizmi nəzərdən keçirərkən müasir ədəbiyyatın görkəmli simalarından olan V.Makaninin yaradıcılığını diqqətdən kənarda qoymaq olmaz. Onun əsərlərində realizmin bu növünün bir çox tipoloji xüsusiyyətləri əks olunmuşdur. Buna görə də dissertasiyanın mövzusu olan postrealizm probleminin təhlili üçün əsas ədəbi material kimi məhz onun yaradıcılığı seçilmişdir.

Yazıçı kimi V.Makanini maraqlı bədii-estetik axtarışlar, müasir ədəbiyyatın müxtəlif inkişafı dövrlərində onun aparıcı tendensiyalarına mü-

raciət və onların tamamilə fərdi bədii formalara transformasiyası səciyyələndirir. İlk əsərlərindən başlayaraq indiyədək bu əlamətlər onun yaradıcılığında nəzərə çarpır. Bunun nəticəsidir ki, V.Makanin 1990-cı illərdə ən tez-tez dərc olunan müəlliflərdən birinə çevrilir, Bukerovsk, Puşkin, RF Dövlət Mükafatı və digər bir sıra nüfuzlu mükafatlara layiq görülür.

1970-ci illərin əvvəllərində V.Makanin tərəfindən «Безотцовщина», «На первом дыхании», «Валечка Чекина», «Старые книги», «Погоня», «Ключарев и Алимушкин», «Гражданин убегающий», «Река с быстрым течением» və digər hekayələr yazılmışdır. 1970-ci illərin sonları – 1980-ci illərin əvvəllərində V.Makanin özünün «Портрет и вокруг», «Предтеча», «Антилидер», «Один и одна» və s. yeni povestləri və romanları, 1980-ci illərin ikinci yarısında isə «Отставший» və «Утрата» povestləri ilə çıxış edir. V.Makaninin 1990-cı illərin nəsrində «Лаз» (1991) povesti, «Кавказский пленный» (1994) hekayəsi və onun 1990-cı illərin nəsrinə yekun vuran «Андерграунд, или Герой нашего времени» romanı seçilir. Bütün bu əsərlər tədqiqat işində konkret material kimi istifadə olunmuşdur.

Postrealizm problemi hələ də mübahisələr, fikir müxtəlifliyi yaradır. Dissertasiya tədqiqatında postrealizm probleminin tədqiqatına və onun müasir yazıçılardan olan V.Makaninin yaradıcılığı materialı əsasında öyrənilməsinə müraciət də bununla şərtlənir.

**Tədqiqatın obyekti** ümumən realizm, XX əsr realizmi, müasir ədəbiyyatşünaslıqda postrealizm problemləri üzrə əsaslı nəzəri tədqiqatlar, həmçinin V.Makaninin bədii əsərləri və onun yaradıcılığı üzrə ədəbi-tənqidi araşdırmalardır.

**Tədqiqatın predmeti** realist sistemin deformasiyaya uğraması və postrealizmin formalaşması, həmçinin müasir ədəbiyyatda, xüsusən də bu istiqamətin parlaq nümayəndələrindən olan V.Makaninin yaradıcılığında postrealist estetikanın tipologiya və poetika məsələlərindən ibarətdir.

**Tədqiqatın metodları.** Tədqiqatda müqayisəli, təsviri və müqayisəli-tipoloji təhlil metodlarından istifadə olunmuşdur.

**Dissertasiya mövzusunun işlənmə səviyyəsi.** Hazırkı dövrdə müasir rus ədəbiyyatında yeni bədii sistem kimi postrealizm problemi, demək olar ki, kifayət qədər öyrənilməmişdir. 1990-cı illərdə ilk dəfə həm Qərbdə, həm də Rusiyada yeni növ poetikanın formalaşması haqqında danışmağa başladılar. Rus ədəbiyyatşünaslığında modernizm və realizmin sintezi əsasında yeni bədii metodun formalaşması ilə bağlı fərziyyəni ilk dəfə

N.L.Leyderman irəli sürmüşdür[7]. Növbəti ildə N.Leydermanın M.Lipovetski ilə birlikdə yazdığı məqalədə postrealizm haqqında fərziyyə bir daha əsaslandırılmışdır[8]. Bu tənqidçilər tərəfindən birmənalı qəbul olunmadı. Bəziləri onu dəstəklədi (Evq.Yermolin, D.Şturman), digərləri, əksinə, kəskin etirazlarını bildirdilər (P.Basinski, V.Kurbatov və başqaları). Üçüncülər isə xüsusən N.İvanova sintez ideyası və yeni metodun yaranması ilə razılaşaraq onu "transmetarealizm" adlandırdılar. N.Leyderman və M.Lipovetskinin sonrakı əsərlərində də postrealizm haqqında müzakirələr davam etdirildi. Bu tədqiqatlarda onlar rus ədəbiyyatında yeni metodun yaranmasını və onun başlanğıcının 1920-30-cu illərdən gəldiyini, 1990-cı illərdə isə onun tam formalaşdığını əsaslandırır və öz nəzəri fikirlərini bir sıra yazıçıların yaradıcılığının təhlili ilə qüvvətləndirirdilər.

Bundan sonra "yeni realizm" adlandırılan postrealizmin nəzərdən keçirilməsi cəhdləri əks olunan bir sıra tənqidçi və ədəbiyyatşünasların əsərləri peyda olur. Bu tədqiqatlarda da postrealizm realist və modernist tendensiyaların birləşməsi kimi qəbul edilir, yeni metodun öyrənilməsinin ayrı-ayrı tərəfləri təhlil olunurdu. Q.L.Nefagina rus nəsrinə həsr olunmuş kitabında realist sisteminin transformasiyasını qəhrəmanın sosial xüsusiyyətlərinin zəifləməsində, şəxsiyyətin özünüdərkinə yönəldilməsində görür[9]. Bunları postrealizmə xas olan əlamət hesab edir. Realizmin transformasiyası ilə bağlı məsələləri müasir rus ədəbiyyatına həsr olunmuş tədqiqatlarında Azərbaycan alimləri də araşdırmışdı[10]. Lakin postrealizmin nəzəriyyəsi, poetikası, postrealist əsərlərdə mövcudluğunun ifadə üsulları, həmçinin müasir müəlliflərin əsərlərində bu üsulun konkret təzahürləri hələ də kifayət qədər öyrənilməmiş qalır.

V.Makaninin yaradıcılığının tədqiqinə gəlincə isə onun haqqında V.Aqenosov, A.Arxangelski, İ.Dedkov, M.Zolotonosova, N.İvanova, A.Kazintsev, A.Lanşikov, V.Losev, A.Nemzer və digər tanınmış rusiyalı tənqidçilər və ədəbiyyatşünaslar yazmışlar. Azərbaycanda isə A.Hacıyev,

---

[7] Лейдерман Н. Теоретические проблемы изучения русской литературы XX века: Предварительные замечания // Русская литература XX века: Направления и течения. Екатеринбург, 1992.

[8] Лейдерман Н., Липовецкий М. Жизнь после смерти, или Новые сведения о реализме // Новый мир, 1993, №7.

[9] Нефагина Г. Русская проза конца XX века, М., 2005.

[10] Гаджиев А. Русская проза. Вторая половина XX века. Опыт мифопоэтического толкования. Учебное пособие. Баку: Китаб алеми, 2003; Наджиева Ф. Русская литература сегодня. Очерки о новейшей русской литературе. Баку: Мутарджим, 2015.

F.Naciyeva onun yaradıcılığına müraciyət etmişdilər. Bütün bu əsərlərdə yazıçının yaradıcılığının ən müxtəlif tərəfləri tədqiq olunur. Lakin bunlar tam şəkildə yazıçının yaradıcılığında bizi maraqlandıran postrealist problemi üzərində cəmlənməmişdir.

**Dissertasiyanın məqsədi** nəzəri baxımdan postrealizm problemlərinin tədqiqi, həmçinin V.Makaninin yaradıcılığının onun postrealist poetikasına müraciəti baxımından təhlilindən ibarətdir.

Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün dissertasiyada aşağıdakı **vəzifələri** həll etmək nəzərdə tutulur:

1. XX əsrin sonu ədəbiyyatının əsas inkişaf tendensiyalarını nəzərdən keçirmək. Bu dövrün ədəbiyyatında realizmin inkişafının özünəməxsusluğunu üzə çıxarmaq.

2. Nəzərdən keçirilən dövrə aid rus ədəbiyyatında realist istiqamətləri və cərəyanları ilə müqayisədə postmodernizmin yerini, onların qarşılıqlı əlaqəsi məsələlərini müəyyən etmək.

3. Rusiyada postrealizmin formalaşması yollarını, onun səciyyəvi xüsusiyyətlərini təhlil etmək, XX əsrin sonu nəsrində postrealist dünyagörüşünün, postrrealist estetikanın və poetikanın xüsusiyyətlərini üzə çıxarmaq.

4. V.Makaninin müasir ədəbi prosesdə yerini, onun müasir reallığı və müasir insanı ifadə etmək üsullarını müəyyən etmək.

5. Yaradıcılığında postrealist estetikadan istifadə edən yazıçının realizminin özünəməxsusluğunu üzə çıxarmaq.

**Dissertasiyanın elmi yeniliyi** onunla müəyyən olunur ki, burada ilk dəfə olaraq realist metodun yeni formasının (yəni postrealizimin) onun nümayəndələrindən birinin yaradıcılığının konkret materialı əsasında kompleks şəkildə öyrənilməsi cəhdi edilmişdir.

Tədqiqatda Rusiyada postrealizim öyrənilməsi təcrübəsi ümumiləşdirilmiş, onun ətrafında baş vermiş mübahisəli məsələlər nəzərdən keçirilmiş, 1920-30-cu illərdən başlayaraq postrealizmin formalaşması tarixi təhlil edilmiş, əsas inkişaf mərhələləri, müxtəlif yazıçıların yaradıcılığında büruzə olunan üslub cərəyanları, belə müxtəlif əsərləri bir istiqamətdə birləşdirən struktur prinsipləri və tipoloji əlamətlər dəqiqləşdirilmişdir.

Postrealizmin öyrənilməsinin nəzəri tərəfi müasir rus nasirlərindən olan V.Makaninin yaradıcılığının təhlili ilə gücləndirilir. Bu yazıçının əsərlərinin monoqrafik baxımdan tədqiqi onun yaradıcılığında yeni ədəbi strategiyanın yaranmasını, onun əsərlərində postrealizmin əsas prinsip-

lərinin inkişafı və formalaşmasını izləmək imkanı verir. V.Makaninin yaradıcılığı müasir postrealist nəsri kontekstində nəzərdən keçirilir.

**Tədqiqatın nəzəri bazasını** realizmin nəzəri problemləri, həmçinin XX əsr və müasir rus ədəbiyyatında realist və postmodernist metodların əks olunmasının xüsusiyyətlərinin tədqiqi ilə məşğul olan tanınmış ədəbiyyatşünasların əsərləri təşkil edir.

**Dissertasiyanın nəzəri və praktik əhəmiyyəti** ondan ibarətdir ki, burada bir tərəfdən, postrealizmlə bağlı olan nəzəri məsələləri, digər tərəfdən, müasir rus ədəbiyyatının görkəmli yazıçılarından olan V.Makaninin yaradıcılığı monoqrafik baxımdan təhlil edilir.

Dissertasiya işinin əsas müddəaları ədəbiyyat nəzəriyyəsi, rus ədəbiyyatı tarixi üzrə ali məktəblər üçün kursların yaradılmasında istifadə oluna bilər. Aparılmış tədqiqat müasir dövr rus ədəbiyyatının maraqlı nümayəndələrindən birinin yaradıcılığı haqqında təsəvvürü əhəmiyyətli dərəcədə genişləndirir. Tədqiqatın nəticələri elmi-nəzəri və praktik xarakterli sonrakı tədqiqatlar üçün lazımlı ola bilər.

Tədqiqatda olan material mühazirə kurslarıının hazırlanmasında, ədəbiyyat nəzəriyyəsi və müasir rus ədəbiyyatı tarixi üzrə dərsliklər və dərs vəsaitlərinin yazılmasında, həmçinin praktik məşğələlərdə, ali və orta təhsil məktəblərində ədəbiyyat üzrə xüsusi kurslarda istifadə oluna bilər.

**Aşağıdakı müddəalar müdafiəyə çıxarılır**:

1. XX əsrin son on illiyi bir-birinə əks olan, hərdən isə bir-birini istisna edən estetik prinsiplərə söykənən müxtəlif istiqamətlərin mövcudluğu ilə səciyyələnir. Onlar arasında isə realizm, postmodernizm, postrealizm əsas hesab olunur.

2. Realizm bütün inkişaf prosesi ərzində dəfələrlə müxtəlif növ transformasiyalara məruz qalmışdır. Bunun nəticəsində onun ən müxtəlif formaları yaranmışdır. Müasir realist ədəbiyyat nəinki realist, həm də postmodernist xarakterli əsərlərlə zənginləşir. Postmodernizmin realist ədəbiyyata təsiri nəticəsində yeni realizm strategiyası yaranır ki, o da postrealizm adını almışdır.

3. Realizm və postmodernizmin bir-birini istisna edən qarşılaşdırma qeyri-məhsuldar hesab olunur, belə ki, müasir ədəbiyyatda postmodernizm ənənəvi realizmlə paralel şəkildə inkişaf etməkdə davam edir. Əgər ədəbiyyat tarixinə nəzər yetirsək, əyani şəkildə görmək olar ki, rus ədəbiyyatının bütün inkişafı dövründə realizm və modernizm birgə mövcud olmuş, ədəbi prosesin paralel gedən səmtlərini təşkil edib, bir-birini inkar etməmiş, əksinə, reallığa iki müxtəlif baxış üsulu olmuşdur.

4. Postrealist estetikanın yaranmasının səbəblərindən biri sosial realizmin əsaslarının laxlaması olmuşdur. Bu proses 1970-ci illərin əvvəllərində V.Katayevin "yeni nəsr" adlandırılan əsərlərindən başlamışdır. Buradan nəinki sonrakı onilliklərin postmodernist tendensiyaları, həmçinin müasir postrealizmin kökləri başlayır.

5. Müasir postrealist nəsrinin ən görkəmli nümayəndələrindən biri V. Makanindir. Onun yaradıcılığında dünyaya postrealist baxışı yaradan realist və modernist yazı tərzinin elementləri üzvi şəkildə birləşir.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Bakı Slavyan Universitetinin ədəbiyyat nəzəriyyəsi kafedrasında işlənmişdir. Tədqiqatın nəticələri elmi nəşrlər və konfrans materiallarının məcmuələrində dərc olunmuş məqalə və tezislərdə əks olunmuşdur.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, iki fəsil, nəticə, 162 adda istifadə olunmuş ədəbiyyatdan ibarətdir. Tədqiqatın ümumi həcmi 127 səhifədir.

## TƏDQİQATIN MƏZMUNU

**Girişdə** mövzu seçimi və onun aktuallığı əsaslandırılır, predmeti, obyekti, məqsəd və vəzifələri müəyyən olunur, mövzunun müasir ədəbiyyatşünaslıqda öyrənilmə səviyyəsi səciyyələndirilir, tədqiqat metodları göstərilir, müdafiəyə çıxarılan əsas müddəalar formalaşdırılır, dissertasiyanın nəzəri və praktik əhəmiyyəti qeyd olunur.

**"Postrealizm müasir ədəbi prosesdə bədii sistem kimi"** adlanan birinci fəsil üç yarımfəsildən ibarətdir.

**"Realist estetikanın transformasiyaları"** adlı birinci yarımfəsildə Rusiyada XX əsrin son on illiklərində baş verən ədəbi proses səciyyələndirilir. Bu ədəbi proses müxtəlif, bir-birinə əsk, hətta bir-birini istisna edən estetik prinsiplərə söykənməsi, realizm və postmodernizm əsas olan istiqamətlərin sintezi ilə fərqlənir. Bu dövr ədəbiyyatın realizm tərəfi, bir tərəfdən, klassik realizmə sadiqliyi saxlayır, digər tərəfdən, yeniliklərə açıqdır və adətən müxtəlif transformasiyalara məruz qalır.

Müasir tədqiqatçılar realizmin ayrı-ayrı formalara ayrılmasından söhbət açırlar. Məsələn, A.Hacıyev özünün "Русская проза" (Rus nəsri) kitabında realizmin müasir rus nəsrində aşağıdakı əsas inkişaf tendensiyalarını qeyd edir: "rus klassik realizminin ənənələrinin inkişafı" (V.Astafyev, V.Rasputin, A.Soljenitsin, D.Qranin, M.Kurayev və b.), "naturrealist tendensiyalar", yaxud "uydurulmamış ədəbiyyat", "qəddar ədəbiyyat"

(S.Dovlatov, V.Şalamov, Q.Vladimov, S.Kaledin), cəmiyyətdə cərəyan edən sosial-mədəni dəyişikliklərin əksi olan, polifonizmi və çoxşahəliyi ilə seçilən "kütləvi ədəbiyyat" (A.Marinina, S.Lukyanenko, P.Daşkova, M.Semyonova, B.Akunin, A.Slapovskiy, E.Limonov və b.)[11]

F.S.Naciyeva müasir rus yazıçısı L.Petruşevskayanın realizmini təhlil edərkən onun "başqa tip" realist olduğunu vurğulayır. O, qeyd edir ki, L.Petruşevskayanın əsərlərində ənənəvi mövzu, janr, bədii ifadə vasitələri transformasiyaya uğrayır. Nəticədə oxucuda belə bir təsəvvür yaranır ki, bu yazıçı ətraf aləmi, insanları, hadisələri hansısa başqa bir nəzər nöqtəsindən, hamıdan fərqli bir rakursda görür və təsvir edir. L.Petruşevskayanın bir tərəfdən ənənəvi realizmə bağlılığını, o biri tərəfdən, yeni meyllərə "açıq" olmasını vurğulayan tədqiqatçı belə bir nəticəyə gəlir ki, bütün bu yazıçı eksperimentləri realizmin yeniləşməsinə, onun daxilində yeni modifikasiyaların yaranmasına gətirib çıxarır.[12]

Bu dövrün realizmi O.Yermakov, A.Terexovun "hərbi xronika", V.Rasputinin "yeni kənd əhvalatları", detektiv ədəbiyyatı (A.Marinina), "gündəlik məişət" ədəbiyyatı (L.Petruşevskaya), maraqlı belletristika (B.Akunin) və s. kimi cərəyanlarla təmsil olunmuşdur. Bu realizm əsərlərinin hər birinin "özünün həqiqəti" var və bu da həmin müəlliflərin realizminin xüsusiyyətlərini müəyyən edir.

Müasir realist ədəbiyyatı nəinki realizm yönümlü, həm də modernist istiqamətli əsərlərlə zənginləşmişdir. Realist əsərləri həmişə səciyyələndirən "həyat həqiqəti", sənədli "həyat bənzərliyi" tədricən mif, müəmma, utopiya ilə birləşməyə başlayır, real dünya ilə yanaşı alleqorik, müəmmalı dünya meydana çıxır. Bunlar daha aydın şəkildə V.Astafyev, F.İskander, A.Kim, V.Makanin və başqalarının əsərlərində nümayiş olunur.

İkinci yarımfəsil **"Keçid dövrü rus ədəbiyyatında postmodernizm"** adlanır. Burada tədqiqatın predmeti nəzərdən keçirilən dövrdə realizmlə bərabər inkişaf edən postmodernizmdir. Bu istiqamətin nəzəri və praktik əsası Qərbdə qoyulmuşdur (burada J.Derrida, İ.Hassan, J.Bodriyar, J.-F.Liotar və digərlərinin postmodernizm poetikasının əsas müddəaları təhlil edilir), 1980-ci illərin ortalarından başlayaraq isə postmodernizm haqqında Rusiya tənqidçiləri və ədəbiyyatşünasları açıq şəkildə danışmağa

---

[11] Гаджиев А. Русская проза. Вторая половина XX века. Опыт мифопоэтического толкования. Учебное пособие. Баку: Китаб алеми, 2003.

[12] Наджиева Ф. Русская литература сегодня. Очерки о новейшей русской литературе. Баку: Мутарджим, 2015. s. 45.

başladı: M.Lipovetski, A.Jolkovski, A.Genis, B.Paramonov, İ.İlyin, İ.Mankovskaya, V.Kuritsın, M.Berq, İ.Skoropanova, M.Epşteyn.

Bu bölmədə postmodernin postmodernizmlə müqayisəsi, XX-XXI əsrlərin qovşağında tükənmiş bir hadisə kimi postmodernizmə münasibət kimi mübahisəli məsələlər nəzərdən keçirilir. Həmçinin postmodernizmin başlanğıcı, kökləri, onun tipoloji əlamətləri də təhlil edilir. Belə bir qənaətə gəlinir ki, postmodernizm hələ 1960-70-ci illərdə yetişməyə başlayıb.

1980-90-cı illərdə postmodernizm rus ədəbiyyatında S.Qandlevski, Ven.Yerofeyev, D.Qalkovski, T.Tolstaya, V.Pyetsux, S.Kaledin və digərlərinin adları ilə bağlıdır. Onların yaradıcı üslubu və yanaşmasının müxtəlifliyi müqabilində elə poetik xüsusiyyətlər aşkar olunur ki, bunlar da həmin yazıçıları adi realist ədəbiyyatda köklü şəkildə fərqləndirir, onların postmodernizm səviyyəsində oxşarlığından xəbər verirdi.

Rus postmodernizminin əsas növlərinə konseptualizm, neobarokko, sos-art və b. aid edirlər. Beləliklə, postmodernizmin poetikası formalaşırdı. Onun əsas prinsipləri yazıçılarla bərabər, həmçinin tənqidçilərin, ədəbiyyatşünasların manifest xarakterli məqalələrində də öz əksini tapırdı. Onların tədqiqatlarında postmodernizmin ümumi əlamətləri müəyyən olunur və dəqiqləşdirilirdi. Sonra bədii mətnlərdə onlar özünəməxsus forma tapirdılar. Deyilənlər aşağıdakı əsas məhvum və terminlərə aiddir: dekonstruksiya, intertekstuallıq, oyun, dialogizm, mətndə müəllif mövqeyi məsələsi, şizoanaliz və s.

**“Postrealizm və onun əsas struktur prinsipləri”** adlı üçüncü yarımfəsildə postrealizmin yaranmasının ilkin şərtləri nəzərdən keçirilmişdir. Bura realizmin mutasiya prosesi, postmodern yanaşmanın xaosla oyun tərzdə münasibətə olan monopoliyasının aradan qaldırlılması, həyat xaosunda məna və harmoniyanın axtarışı və s. daxildir. Bu bölmədə tədqiqat predmetinə həmçinin postrealist ədəbiyyatının qəhrəmanı da daxildir. M.Butov, İ.Polyanskaya, N.Kononov, Y.Buyda, M.Şişkin, L.Petruşevsakaya, O.Slavnikova və başqaları öz əsərlərində ekzistensial münaqişəyə üstünlük verirlər. Təsadüfi deyildir ki, postrealist yazıçılarını ekzistensial realist adlandırmışlar.

Postrealizmə aid edilən yazıçılar bədii əsərlərində realizm və modernizmin əldə etdiyi nailiyyətləri istifadə edərək, böyük məharətlə sintez edirlər. Belə bir sintez axtarışları əsasən rus ədəbiyyatının sovet dövründəki vəziyyəti ilə şərtlənirdi. Məlumdur ki, bu dövr modernizm meylləri daşıyan hər bir əsər qadağan edilirdi. Bu mənada müasir ədəbi prosesinə XX əsrin

əvvəllərində yaradılan rus ədəbiyyatı nümunələri təsir göstərirdi. Bu proses postsovet dövründə intensivləşir.

Bu bölmədə həmçinin postrealizmin realist (insana diqqət, determinizm, tipik xarakterlər və s.) və postmodernist (xaosla dialoq, irrasionalizm, arxetiplərə doğru meyl, varlığın ekzistensial problemləri və s.) tendensiyaların sintezinə əsaslanan bir bədii sistem kimi nəzərdən keçirilir.

**"Postrealist estetikası kontekstində V.Makaninin yaradıcılığı"** adlanan ikinci fəsil də üç yarımfəsildən ibarətdir.

**"V.Makaninin yaradıcılıq mərhələləri və postrealist estetikanın formalaşması"** adlı birinci yarımfəsildə müasir rus nəsrinin parlaq nümayəndələrindən olan V.Makanindən danışılır. Onun yaradıcılığında realizmin tədqiqatçıların postrealizm kimi müəyyən etdiyi modeli parlaq şəkildə özünü göstərir. Bu bölmədə V.Makaninin onun tövbə nəsrinə («Прямая линия») müraciətindən başlayaraq bütün yaradıcılıq mərhələləri nəzərdən keçirilir. Bu əsərlərin qəhrəmanı yeni şəraitdə öz romantik enerjisini realizə etməyə,azadlıq arzusunu həyata keçirməyə çalışır. Lakin bunlar indi yalnız karyera qurmaq, ev almaq, yaşayış şəraitini yaxşılaşdırmaq, maddi nemətlər əldə etmək səviyyəsindədir.

"Yumşalma" dövründən sonra yaranan yeni mühitə uyğunlaşan praqmatik qəhrəman romantik qəhrəmanı əvəz edir və V.Makaninin 1970-ci illərin əvvəlləri və ortalarında yazılan hekayələrində mərkəzi yer tutur («Безотцовщина», «На первом дыхании», «Валечка Чекина», «Старые книги», «Погоня» və s.). Burada sosial məsələlər tədricən arxa plana keçir, öz yerini həyat, məişət haqqında fəlsəfi fikirlərə verir. Bu əsərlərin qəhrəmanı yeni şəraitdə öz romantik enerjisini realizə etməyə,azadlıq arzusunu həyata keçirməyə çalışır. Lakin bunlar indi yalnız karyera qurmaq, ev almaq, yaşayış şəraitini yaxşılaşdırmaq, maddi nemətlər əldə etmək səviyyəsindədir.

1970-ci illərin ikinci yarısı – 80-ci illərin əvvəli hekayə və povestlər – «Ключарев и Алимушкин», «Гражданин убегающий», «Портрет и вокруг», «Река с быстрым течением», «Полоса перемен» yeni estetik baxış, reallığın göstərilməsi üçün yeni üsulların ilk təqdimatı idi.

V.Makaninin yaradıcılığının inkişafının, onun estetik baxışlarının formalaşmasının yeni mərhələsi 1980-ci illərdə başlayır («Антилидер», «Голоса», «Человек свиты», «Предтеча», «Где сходилось небо с холмами», «Один и одна», «Утрата», «Отставший», «Сюр в пролетарском районе»). Bir çox rus klassiklərinin müraciət etdiyi insan ruhunun fərdilik və icma başlanğıclarının qarşıdurması konsepsiyası V.Makaninin bu dövrdəki yaradıcılığında xüsusi ahəngdarlıqla səslənir.

1990-cı illər V.Makaninin yaradıcılığında əsl yüksəliş dövrüdür. Bu illərdə «Лаз» (1991), «Долог наш путь» (1991), «Квази» (1993) povestləri, «Кавказский пленный» (1994), «Стол, покрытый сукном и с графином посередине» (1995) hekayələri, «Андерграунд, или Герой нашего времени» (1998) romanı və digərləri yazılmışdır.

V.Makaninin əsərləri biri-birindən çox fərqlidir, lakin onun dəsti-xətti hər zaman tanınır. Bunun səbəbi hər bir istedadlı yazıçıda olduğu kimi onun hər dəfə yeni ifadə vasitələri axtarışında olmasından irəli gəlir. Bununla bərabər, onun bütün əsərlərinin əsasını hər dəfə yeni üslub formasında, xəttlərində öz təzahürünü tapan dünyagörüşü təşkil edir. V.Makanin öz əsərlərində insanın cəmiyyətdə tutduğu yeri, mövqeyi problemini həll etməyə çalışır. Lakin ənənəvi realistlərdən fərqli olaraq o, öz qəhrəmanını konkret məkana, zamana bilavasitə "bağlamır". Buna baxmayaraq yazıçının bütün əsərlərində insanın yaşadığı cəmiyyətlə, ətraf mühitlə, bütün dünya ilə qirilmaz əlaqəsi göstərilir. V.Makanin qarşısına qoyduğu məsələləri həll etmək üçün bir tərəfdən heç zaman ayrılmadığı realizmə, o biri tərəfdən postmodernist üsullarına arxalanır. Bu onun postrealist metodunun, həyatı əks etdirmə tərzinin əsasını təşkil edir. O, öz aləmini, öz dünya mənzərəsini və öz qəhrəmanını yaradır. Bütün bunların vasitəsilə V.Makanin bədii formada öz ideyalarını, dünyagörüşünü realizə edir, oxucu ilə ünsiyyət yaradır.

**"V.Makaninin əsərlərində "həyatın axarlığı" dünya modeli kimi və onun "orta" qəhrəmanı"** adlı ikinci yarımfəsildə V.Makaninin yaradıcılığına tətbiq edilən və V.Makaninin dünya modelini və qəhrəmanını səciyyələndirən "həyatın axarlığı" və "orta qəhrəman" anlayışlarının məğzi açıqlanır. V.Makaninin hekayələrinin, povestlərinin və romanlarının süjetləri fəlsəfi əhəmiyyəti ilə təəssüratlandırır. Hər bir əsərində o, bədii yolla insanın bu "axarlığın" hakimiyyətindən qurtulmasının necə çətin olduğunu inamla göstərir. Onun qəhrəmanları özlərini elə özləri tərəfindən yaradılan ayinlər və avtomatizmin səlahiyyətlərinə verir və artıq öz həyatlarına hakim deyillər.

V.Makaninin "orta qəhrəman" anlayışı da təhlil edilir. Yazıçının qəhrəmanları sanki həyatın özündən götürülüb, onların hər birisi həyatın axarına müqavimət göstərmədən yaşayır, onlar "alın yazısı" kimi qiymətləndirdikləri ömrə tabe olur və buna uyğun tərzdə həyatlarının sonuna kimi yaşayırlar. V.Makaninin qəhrəmanı əksər hallarda cəmiyyətin orta təbəqəsinə aid olan insandır. Özünü aparma tərzi və ünsiyyət dairəsi tamamilə onun sosial vəziyyətinə uyğun şəkildə göstərilir. Adətən bu qəhrəman kiçik qəsəbə

(nə böyük şəhər, nə də ki balaca kənd) sakinidir. “Orta süjet”, bu və ya digər səbəblərdən müəyyən nəticələrə gətirib çıxaran şəxsiyyətin orta kütlədə ərimәsi elə həyatın, məişətin süjetidir. Dünyaya və insana belə baxış V.Makanini fərqləndirir və ona özünün dünya modelini və özünün qəhrəmanını yaratmağa imkan verir. Bu model insanın hələ uyğunlaşmadığı fəlakətlər, köhnə dəyərlərin məhvi və yeni dəyərlərin yaranması dövründə mümkündür.

**“V.Makaninin nəsrinin bədii məzmununun özəlliyi”** adlı üçüncü yarımfəsildə V.Makaninin postrealist estetikasının formalaşması mövqeyindən çıxış edərək onun nəsri poetikasının əsas tərkib hissəsi, onun bədii xüsusiyyətləri, yazıçının istifadə etdiyi bədii ifadə vasitələri, onun yazı üslubunun özəlliyi, əsərlərinin janr-üslub müxtəlifliyi nəzərdən keçirilir. Bu, əfsanə və müasirliyin, xəyalilik və reallığın sintezi, ənənəvi süjet xəttindən uzaqlaşma, onların variantlılığı, finalın xüsusiyyəti, motiv strukturudur.

V.Makaninin əsərləri janr etibarilə də çox orijinaldır. Lakin janr, mövzu rəngarəngliyinə baxmayaraq, V.Makanin bütün əsərlərində belə bir əsas müəllif ideyasını irəli sürür – yalnız ətrafda baş verənlər üçün məsuliyyət, dünyanın gedişatından doğan narahatçılıq insanın həyatını mənalandırır, onu dolğun edir.

Bu bölmədə V.Makaninin həm klassik rus ədəbiyyatının yaratdığı bədii ifadə vasitələrinə, həm də postmodernist üsul və vasitələrinə istinad etməsi üzə çıxarılır. V.Makaninin bütün yaradıcılıq yolu boyu özünün yaradıcılıq tərzinə sadiqliyini saxlamaqla eyni zamanda daim həyati materiallarla işləmək taktikasını dəyişmək və ən müxtəlif estetik ölçüləri tətbiq etmək bacarığı təhlil edilir.

Dissertasiyanın **Nəticəsində** tədqiqatın yekunları verilir.

**Dissertasiyanın əsas müddəaları aşağıdakı məqalə və tezislərdə əks olunmuşdur:**

1. Основные течения в русском постреализме 1980-90-х годов //Beynəlxalq elmi-nəzəri jurnal “Dil və ədəbiyyat”. BDU, Bakı, 2009, №2 (68), с. 156-158.

2. К вопросу об истории постреализма // Aspirantların və gənc tədqiqatçıların XIII Respublika konfransinin materialları, Bakı, с.240-241.

3. «Самотечность жизни» в творчестве Владимира Маканина // Beynəlxalq elmi-nəzəri jurnal “Dil və ədəbiyyat”. BDU, Bakı, 2009, №3 (69), с.192-194.

4. «Самотечность жизни» в творчестве Владимира Маканина// Русский язык и литература в современном Азербайджане. Тезисы докладов. К 90-летию Бакинского государственного университета. Баку, 2009, с. 26-28.

5. О жанрах в творчестве В.Маканина // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, Bakı: Mütərcim, 2010, №1, с.189-192.

6. О жанре антиутопии в творчестве В.Маканина // Aspirantların və gənc tədqiqatçıların XIV Respublika konfransinin materialları, Bakı, 2010, с.207-208.

7. Художественно-эстетические принципы творчества В.Маканина // Диалог языков и культур СНГ и ШОС в XXI веке. Сборник материалов VIМеждународного форума. Баку, 8-11 ноября 2010 года. Часть II. Москва, ИПК МГЛУ «Рема», 2011, с. 170-174.

8. Современное литературоведение о постреализме как одной из модификаций реализма //Гуманитарные исследования. Журнал фундаментальных и прикладных исследований. Астраханский государственный университет. Издательский дом «Астраханский университет», 2016, №1(57), с.73-79.

9. О формировании постреалистической эстетики в творчестве Владимира Маканина // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Bakı: Mütərcim, №1, 2016,с. 193-197.

**Ulviya Sabir Bakhshaliyeva**

# POST-REALISM IN RUSSIAN LITERATURE OF LATE XX CENTURY

## Summary

The thesis consists of introduction, two chapters, conclusion and the list of used literature.

**The introduction part** tells about the rationale of the choice of the theme and its urgency, as well as describes its subject, object, goals and objectives, the degree of scrutiny of the theme in contemporary literary criticism, specifies research methods, the main provisions subject for the defence and emphasizes the theoretical and practical significance of the thesis.

**The first chapter, which is "Post-realism as an artistic system in the contemporary literary process"** consists of three subchapters. **The first subchapter - "Transformations of realistic aesthetics" -** gives characteristic of realism in Russia, during the last decades of the XX century, which is open to new trends and undergoes transformations. The main subject of the study of **the second subchapter - "Postmodernism in Russian literature of the transitional epoch**" - is postmodernism, which currently along with realism is actively developing. **The third subchapter - "post-realism and its basic structural principles"-** considers prerequisites for the formation of post-realism as an artistic system, which is based on a synthesis of realistic and postmodern trends.

**The second chapter - "The works of Vladimir Makanin in the context of post realistic aesthetics"** - also consists of three subchapters. The **first subchapter - "Stages of creativity of V. Makanin and formation of post realistic aesthetics"** - analyzes the stages of creative development of V. S. Makanin, in which post-realism as a modification of realism is manifested. **The second subchapter – "drift of life" as a model of the world in the works V. Makanin and his "middle" hero"-** describes the essence of the world and the model of Makanin's hero. **The third sub-chapter - "The specifics of the artistic texture of prose of V. Makanin"** – considers the basic elements of the poetics of the writer from the standpoint of post-realistic aesthetics.

**The conclusion** part of the thesis summarizes the main results of the study.

Çapa imzalanıb: 19.04.2016.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru